# *Əli ƏSƏDOV:* "Azərbaycan rəqəmsal texnologiyaları fəal şəkildə tətbiq edir  və sənayenin transformasiyasını həyata keçirir"




**Sentyabrın 28-də Minskdəki BELEXPO Beynəlxalq Sərgi Mərkəzində "Yeni texnologiyalar ittifaqı: Gələcəyin sənayesini yaradarkən" mövzusunda plenar iclas keçirilib.**

AZƏRTAC xəbər verir ki, plenar iclasdan əvvəl Azərbaycanın Baş naziri Əli Əsədov və Müstəqil Dövlətlər Birliyinin digər hökumət başçıları "İnnoprom Belarus" beynəlxalq sənaye sərgisinə birgə baxış keçiriblər.

Plenar iclasda çıxış edən Ə.Əsədov Azərbaycan iqtisadiyyatının davamlı inkişafı üçün rəqəmsallaşma və texnoloji transformasiyanın vacibliyini vurğulayıb.

Baş nazir qeyd edib ki, Dördüncü Sənaye İnqilabı dövründə texnoloji tərəqqi iqtisadiyyatın və cəmiyyətin bütün sahələrinə mühüm təsir göstərir. Onun sözlərinə görə, davamlı inkişaf texnoloji trendləri strateji cəhətdən yönləndirmək bacarığından birbaşa asılıdır.

"Azərbaycan rəqəmsallaşma və texnoloji innovasiyaların iqtisadiyyata tətbiqi sahəsində məqsədyönlü tədbirlər həyata keçirir", - deyən Baş nazir ölkənin beş milli strateji prioritetindən birinin dayanıqlı və rəqabətqabiliyyətli iqtisadi artımın təmin edilməsi olduğunu vurğulayıb.



Ə.Əsədov milli təşəbbüslər, o cümlədən "Rəqəmsal İnkişaf Konsepsiyası", "Süni İntellekt Strategiyası" və "2025-2028-ci illər üçün Rəqəmsal İqtisadiyyatın İnkişafı Strategiyası" barədə ətraflı məlumat verib. Bu sənədlər biznesin rəqəmsal infrastrukturunun gücləndirilməsinə və texnoloji uyğunlaşmanın sürətləndirilməsinə yönəlib, həmçinin qlobal texnoloji tendensiyaları nəzərə almaqla biznes, hökumət və cəmiyyət arasında sinerji yaratmağa xidmət edir.

Baş nazir Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı şəbəkəsinin 24 qlobal mərkəzindən biri olan Dördüncü Sənaye İnqilabının Təhlil və Koordinasiya Mərkəzinin rolunu xüsusi vurğulayıb və bu mərkəzin ölkənin texnoloji transformasiyasına verdiyi töhfəni diqqətə çatdırıb.

Ə.Əsədov qeyd edib ki, son on ildə Azərbaycanda sənayeləşmə təkcə iqtisadi siyasətin tərkib hissəsi kimi deyil, həm də uzunmüddətli dayanıqlı inkişafın təməli olaraq həyata keçirilir. O bildirib ki, sənaye zonalarının inkişafı, investisiyaların təşviqi və texnologiyanın mənimsənilməsi innovasiyaları və ixracyönümlü artımı təşviq edən ekosistemlər yaradır.

Baş nazir Azərbaycanın sənaye transformasiyasında əldə etdiyi nailiyyətlərin beynəlxalq aləmdə tanındığını da plenar iclas iştirakçılarının diqqətinə çatdırıb. O əlavə edib: "Dövlət Neft Şirkətinə məxsus "Petkim" və "STAR" zavodları rəqəmsallaşmış ən qabaqcıl sənaye obyektləri arasında Dünya İqtisadi Forumunun nüfuzlu mükafatına layiq görülüb".

Plenar iclas iştirakçılarına qabaqcıl texnologiyaların tətbiqi və sənaye müəssisələrinin səmərəliliyinin artırılması məqsədi daşıyan Sənaye 4.0 Hazırlıq Proqramının icrası barədə məlumat verilib.

Ə.Əsədov həmçinin sənayenin uğurlu transformasiyası üçün beynəlxalq əməkdaşlığın vacibliyini qeyd edib.

Azərbaycan. - 2025.- 30 sentyabr (№ 209).- S.4.